

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 169 (21.579)

9 sentyabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaz rayonuna səfərə gedib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaza səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin yeni binasının, Xudat-Yalama-Zuxuloba avtomobil yolunun, "Yalama" Südlük-Maldarlıq üzrə Damazlıq Dövlət Kənd Təsərrüfatı İstehsalı Müəssisəsinin bazasında yaradılmış Yalama Aqroparkının açılışlarında iştirak edib, Yalama qəsəbəsindəki Heydər Əliyev adına parkda, Xaçmaz şəhərindəki Bayraq Meydanında və Bayraq Muzeyində yaradılan şəraitlə, şəhərin mərkəzində yerləşən Nikah evinin binası ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaza səfərini başa çatdıraraq Qusara gedib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də əsaslı şəkildə yenidən qurulan Qusar-İmamqulukənd-Quxuroba avtomobil yolunun, Qusar rayonunun Hil kəndində professor Kərim Kərimov adına tam orta məktəbin yeni binasının açılışlarında iştirak edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Sentyabrın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas və Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuris Maklakovs ilə görüşmüşdür.

Qonaqları salamlayan Ali Məclisin Sədri muxtar respublikanın ərazisi, əhalisi və sosial-iqtisadi inkişafı haqqında ətraflı məlumat vermişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Naxçıvanın blokada şəraitində yaşadığını qeyd edən Ali Məclisin Sədri buna baxmayaraq muxtar respublikada iqtisadi inkişafın təmin olunduğunu bildirmiş və bu sahədə görülən işlərdən danışmışdır.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Litva və Latviya respublikaları arasında əlaqələrin inkişafı üçün potensialın olduğunu bildirmiş, ali təhsil müəssisələri və iş adamları arasında əməkdaşlığın yaradılmasının əhəmiyyətini vurğulamışdır.

Valdas Lastauskas və Yuris Maklakovs səmimi qəbula görə minnətdarlıq etmişlər. Naxçıvanın inkişafının və burada istehsal olunan məhsulların keyfiyyətinin məmnunluq doğurduğunu qeyd edən səfirlər ölkələri ilə muxtar respublika arasında əlaqələrin müxtəlif sahələrdə inkişafına səy göstərəcəklərini bildirmişlər.

Görüşdə gələcək əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri ilə görüşmüşdür



Sentyabrın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış, ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini bildirmişdir. Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyi tərəfindən həyata keçirilən tədbirlərdən danışan Ali Məclisin Sədri Robert Sekutanın səfərinin əhəmiyyətini qeyd etmişdir.

Göstərilən səmimi münasibətə görə minnətdarlıq edən Robert Sekuta Naxçıvanda olmaqdan məmnunluğunu ifadə etmişdir. Qonaq səfərinin Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın əsas ərazisindən təcrid olunan Naxçıvan Muxtar Respublikası ilə yaxından tanışlıq məqsədi daşıdığını bildirmişdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri muxtar respublikanın mədəniyyət müəssisələri ilə tanış olub

***Sentyabrın 8-də Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.***

Həmin gün qonaq ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

Bildirilib ki, Azərbaycanın müasir dövlətçilik tarixi və ümummilli liderin siyasi irsi ilə maraqlanan hər kəs Heydər Əliyev Muzeyinə üz tutur, tədqiqatçılar burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər. Belə ki, muzeyin fondunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən 4 min 617 eksponat var, kitabxana fondunda isə 589 adda 1202 kitab, jurnallar, albomlar mövcuddur.

Diqqətə çatdırılıb ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Muzeydə ümummilli lider Heydər Əliyevin uşaqlıq və gənclik illərinə həsr olunmuş qiymətli eksponatlar, Onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid (1991-1993) şəxsi sənəd və materiallar, imzaladığı sərəncamlar, qərarlar, qonşu dövlətlərlə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, həmin illərdə Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri nümayiş etdirilir.



Qeyd olunub ki, ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə Amerika Birləşmiş Ştatları ilə əlaqələrin qurulmasına və inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verib. Bill Klinton ilk dəfə Amerikanın Prezidenti seçilərkən ümummilli lider ona təbrik məktubu ünvanlayıb. 1993-cü ilin mart ayında isə Amerikadan Naxçıvana humanitar yardım göndərilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətinin həmin dövrə aid məlumatlarında da bu, öz əksini tapıb. Həmin məlumatlar bu gün Heydər Əliyev Muzeyində saxlanılır.

Səfir "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub.

Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında açıq səma altında nümayiş etdirilən daş abidələr qonaqların diqqətini cəlb edib.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq da Robert Sekutada xoş təəssürat yaradıb.

Xan sarayında olarkən məlumat verilib ki, saray XVIII əsrə aid tarixi-memarlıq abidəsidir. Bina Kalbalı xan Kəngərli tərəfindən tikdirilib. Şərq memarlığı üslubunda tikilmiş abidə XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək Naxçıvan xanlarının yaşayış evi olub, bununla yanaşı, xanlığın siyasi iqamətgahı funksiyasını yerinə yetirib. Muzey Naxçıvan xanlığının dövlətçilik tariximizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Dövlət Xalça Muzeyində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində də olub.

**Rauf ƏLİYEV**

*Sentyabrın 7-də Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas və Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuris Maklakovs Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər.*

## Litva və Latviya respublikalarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri muxtar respublikanın mədəniyyət müəssisələri ilə tanış olub, yerli istehsal məhsullarının nümayiş etdirildiyi sərgiyə baxıblar

Sentyabrın 8-də qonaqlar ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər. Ziyarət zamanı ümummilli lider Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini özündə əks etdirən eksponatlar haqqında məlumat verilib.

Naxçıvan Dövlət Xalça Muzeyində isə bildirilib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan milli mədəniyyətimizin inkişafına təkcə tarixi-memarlıq abidələri ilə deyil, həm də zəngin xalçaçılıq ənənələri ilə töhfə verib. Naxçıvanın iqlimi, füsunkar təbiəti burada palaz, kilim, sumax, vərni, şəddə, zili və cecim kimi xalça növlərinin toxunmasına, ümumilikdə isə xalçatoxuma sənətinin inkişaf etdirilməsinə imkan verib. Son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, bu mədəni irsin qorunması və təbliği işinə diqqət artırılır. Görülən işlər milli xalçaçılıq sənətinin yaşadılmasına və bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul olub. 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin edilib, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda muzeydə 3000-dən çox eksponat vardır ki, bunlardan 300-ə yaxını ekspozisiyada nümayiş etdirilir.

Məlumat verilib ki, Naxçıvan xalçaçılıq məktəbinə aid nadir xalçaların saxlanıldığı muzeyin üç dildə fəaliyyət göstərən internet saytı yaradılıb. Saytın bölmələrində muzeyin fondunda saxlanılan xalçalar və xalçaçılıq məmulatlarının fotoşəkilləri, onların hansı dövrə və bölgəyə aid olması barədə məlumatlar, Azərbaycan xalçaçılıq sənəti ilə bağlı nəşr olunan elmi ədəbiyyatlar, jurnal və broşürlər yerləşdirilib. Saytın "virtual ekskursiya" bölməsi vasitəsilə tamaşaçılar Naxçıvan Dövlət Xalça Muzeyinin ekspozisiyasını virtual olaraq izləyə bilirlər.

Pribaltikalı diplomatlar daha sonra Naxçıvan Biznes Mərkəzində olub, burada yerli məhsulların nümayiş etdirildiyi sərgiyə baxıblar. Məlumat verilib ki, 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və



satışı, sahibkarların tədris-informasiya məkanı kimi yaradılan mərkəz 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirir. Mərkəzin əsas missiyası sahibkarlara xidmət, biznesin inkişafı üzrə onlara məsləhətlərin verilməsi, biznesə yeni başlayanlar üçün treninqlərin təşkili, biznes planların hazırlanmasında metodoloji dəstək göstərilməsidir. Bildirilib ki, hazırda burada muxtar respublikada 100-ə yaxın istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən müxtəlif tikinti, ərzaq, geyim, mebel nümunələri nümayiş olunur. Muxtar respublikada iri özəl sektor təmsilçiləri olan "Gəmiqaya Holdinq", "Dizayn Holdinq", "Cahan Holdinq" Şirkətlər ittifaqları, "Zümrüd" Kiçik Müəssisəsi, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutub.

Həmin gün qonaqlar "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini də ziyarət ediblər. Naxçıvanqala ilə tanışlıq zamanı bildirilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Bunun nəticəsidir ki, bu ərazidə tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri yaradılıb. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb. Kompleksdəki muzeydə eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyimlər nümayiş etdirilir.

Qeyd olunub ki, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi hazırda muxtar respublikada mədəni-kütləvi tədbirlərin keçirildiyi mərkəzə çevrilib.

Sonra qonaqlar kompleksdə yerləşən Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarət ediblər.

Qeyd edək ki, diplomatların muxtar respublikaya səfəri bu gün də davam edir.

Səbuhi HƏSƏNOV

*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində muxtar respublikanın təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilib.*

## Təhsil işçilərinin konfransı keçirilib

Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov məruzə edərək yeni dərs ilinin başlanması münasibətilə təhsil işçilərini təbrik edib, 2015-2016-cı tədris ilinin yekunları və qarşıda duran vəzifələr barədə danışıb.

Bildirilib ki, bu gün Naxçıvan təhsili özünün inkişaf dövrünü yaşayır. Muxtar respublika rəhbərinin təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğı sayəsində 1996-cı ildən ötən dövr ərzində Naxçıvanda 200-dən çox təhsil müəssisəsi üçün bina tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Əvvəlki illərdə olduğu kimi, 2016-cı ildə də tikinti-quruculuq işlərinin önündə təhsil quruculuğu dayanır. Muxtar respublikada 2016-cı ilin I yarımili ərzində 1806 şagird yerlik altı tam orta məktəb binası, bir peşə məktəbi istifadəyə verilib. Hazırda Naxçıvan Dövlət Texniki Kollecinin yeni binasının, Naxçıvan şəhərində 3 və 13 nömrəli, Şərur rayonunda Şərur şəhər 2 nömrəli, Çəmənli, Arbatan, Babək rayonunda Məzrə, Ordubad rayonunda Baş Dizə, Culfa rayonunda Gülüstan, Xanəgah, Şahbuz rayonunda Kolanı, Kəngərli rayonunda Şahtaxtı kənd tam orta məktəblərin binalarının tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Təhsilə göstərilən diqqət və qayğının nəticəsidir ki, muxtar respublikamızda tikilən və ya əsaslı şəkildə yenidən qurulan bütün təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilib, məktəblər müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Ümumtəhsil məktəblərində 623 elektron lövhə quraşdırılıb və təhsil müəssisələrinə 3725 dəst kompüter verilib ki, onların da 2890-ı internetə qoşulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn məsələlərin həlli istiqamətində həyata keçirilən tədbirlər nəticəsində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 mart tarixli "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında



əlaqələrin təşkili haqqında" Sərəncamına uyğun olaraq, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və orta ixtisas təhsili müəssisələrində çalışan elmi dərəcəli əməkdaşlar tərəfindən yarımil ərzində muxtar respublika ümumtəhsil məktəblərində 712 saat nümunəvi dərslər tədris olunub.

Qeyd edilib ki, ümumtəhsil məktəbləri üzrə keçirilən IX və XI siniflərin buraxılış imtahanlarında IX sinif üzrə 3610, XI sinif üzrə 3127 şagird iştirak edib. Bu il məktəbi bitirən 3138 məzundan 2469-u ali məktəblərə qəbul üçün sənəd verib ki, bu da məktəbi bitirənlərin 78,9 faizini təşkil edir. Məzunlardan 1225-i, yaxud 49,6 faizi oğlanlar, 1244-ü, yaxud 50,4 faizi qızlardır. Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə birgə bu il ali hərbi məktəblərə və digər ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 2674 nəfər olub. Bu isə, ümumilikdə, məktəbi bitirən məzunların 80 faizi deməkdir. Məzunlardan 191 nəfəri xüsusi təyinatlı ali məktəblərə qəbul üçün sənəd verib. Ali təhsil müəssisələrinə qəbul üçün keçirilən imtahanlarda iştirak edən 2016-cı ilin məzunlarından 1538 nəfəri ali təhsil müəssisələrinə qəbul olunub ki, bu da sənəd verənlərin 62 faizini təşkil edir. Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 199-u ölkənin müxtəlif ali hərbi məktəblərinə qəbul olunub. Bu il yüksək bal toplayanların sayı ötən ilə nisbətən 25 nəfər, 600-700 arası bal toplayanların sayı isə 8 nəfər artıb. Qəbul imtahanlarında məzunları yüksək nəticələr göstərən məktəblərin sayı 121 olub. 2015-2016-cı tədris ilində tələbə adını qazanan məzunlardan 63 nəfəri xüsusi təyinatlı ali məktəblərə qəbul olub. Muxtar respublikamızın ali təhsil müəssisələrində yaradılan yüksək təhsil şəraitinin nəticəsidir ki, abituriyentlərimiz ixtisas seçimi zamanı Naxçıvanda fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil almağa daha çox üstünlük veriblər. 2016-cı ildə 998 nəfər, yaxud qəbul olunanların 65 faizi ixtisas seçimi zamanı Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçiblər. Onlardan 655-i Naxçıvan Dövlət Universitetinə, 142-si "Naxçıvan" Universitetinə, 201-i isə Naxçıvan Müəllimlər İnstitutuna qəbul olunublar. 2015-2016-cı tədris ilində məktəbi yüksək nəticələrlə başa vuran 27 məzun qızıl və gümüş medallara layiq görülüb. Qəbul imtahanlarında həmin məzunlardan 12 nəfəri 600-650, 15 nəfəri isə 650-700 arası bal toplayıblar.

Məruzəsində qazanılan uğurlarla yanaşı, işdə buraxılan nöqsanlara da toxunan və əldə olunan nəticələrin müqayisəli təhlilinə geniş yer verən nazir bildirib ki, bəzi ümumtəhsil məktəblərində keçirilən test-sınaq imtahanlarının nəticələri əsaslı şəkildə müzakirə olunmayıb, şagirdlərin zəif nəticə göstərmiş olduğu fənləri tədris edən müəllimlər haqqında tədbir görülməyib və nəticədə, şagirdlər imtahan zamanı müəyyən fənlərdən çox aşağı nəticələr göstəriblər. Təhsil Nazirliyi növbəti tədris ilində bu sahədə mövcud olan nöqsanları aradan qaldırmaq məqsədilə ümumtəhsil məktəblərinin IV sinif şagirdlərinin test-sınaq imtahanlarına cəlbini təşkil edəcək, fənn kurikulumlarının tətbiqi ilə əlaqədar IX siniflərin və XI siniflərin buraxılış imtahanlarına hazırlığının səviyyəsinin yüksəldilməsi məqsədilə xüsusi sınaqlar həyata keçirəcək. Bundan başqa, bəzi ümumtəhsil məktəblərində olimpiadaya hazırlıq işləri ilboyu aparılmadığından fənn olimpiadalarının rayon mərhələsində iştirak olsa da, şagirdlər müəyyən olunmuş bal həddini keçə bilməyib, respublika mərhələsinin yarımfinal turunda iştirak zəif olub. Məktəb rəhbərləri bununla işlərini bitmiş hesab edib, olimpiadaya hazırlıqla əlaqədar məsələnin təhsil şuralarında müzakirəsini təşkil etməyiblər. Yaradılmış əlverişli şəraitə baxmayaraq, məktəblilərin geyim intizamına tələbkarlıq lazımi səviyyədə olmayıb. Aparılan müşahidələr zamanı belə hallar aşkar edilərək aradan qaldırılıb. Cari tədris ili ərzində bu məsələ diqqətdə saxlanılmalı, müəllim və şagirdlərin geyim intizamına ciddi əməl olunmalıdır.

Qeyd edilib ki, 2015-2016-cı tədris ili ərzində təhsil prosesinə ciddi yanaşmayan, yüksək sayda şagird və müəllim kontingenti olmasına baxmayaraq, ali və orta ixtisas məktəblərinə qəbul zamanı çox zəif nəticə göstərən ümumtəhsil məktəbləri də olub. Belə ki, muxtar respublikanın 16 tam orta məktəbindən sənəd verənlərin 30-40 faizi, 20 tam orta məktəbindən isə 40-50 faizi tələbə adını qazanıb. Bununla yanaşı, Şərur rayonu üzrə 3, Babək rayonu üzrə 5, Ordubad rayonu üzrə 1, Kəngərli rayonu üzrə 1 olmaqla, muxtar respublika üzrə 10 tam orta məktəbdən ali və orta ixtisas məktəblərinə cəmi 20-30 faiz qəbul olub. Zəif nəticə göstərən məktəblərin rəhbərləri və müvafiq təhsil şöbələri 2016-2017-ci tədris ilində işlərində ciddi dönüş yaratmalı, ümumtəhsil məktəblərində dəqiq elmlərin tədrisi səviyyəsinin yüksəldilməsi üçün daha çox səy göstərməlidirlər.

"İl ərzində aparılan yoxlama-reydlər onu göstərir ki, ümumtəhsil məktəblərində istər pedaqoji işçilər, istərsə də şagirdlərin məktəbə davamiyyətində də nöqsanlar mövcuddur", – deyən Məmməd Qəribov konfrans iştirakçılarının diqqətinə çatdırıb ki, fakültativ və fərdi qrup məşğələləri üçün ayrılmış saatların tətbiqində təlimati tələblər bəzi hallarda gözlənilmir, bunun nəticəsində də şagirdlərin dərsdən sonrakı asudə vaxtlarının səmərəli təşkil edilməsi üçün lazımi şərait yaranmır. Yeni təlim metodlarından istifadə edərək təlim-tərbiyə işlərini aparmaları üçün məktəb rəhbərləri tərəfindən fənn müəllimlərinin işinə düzgün nəzarət olunmur, məktəbdə sənədləşmə işinin aparılmasında ciddi nöqsanlara yol verilir. Belə ki, bəzi məktəblərdə kompüter və elektron lövhələrdən təyinatı üzrə az istifadə olunur, tədris ili ərzində bir sıra məktəb rəhbərləri tərəfindən lazım olan miqdarda dərs dinləmələri aparılmır və yaxud aparılsa da, dərs dinləmələrinin nəticələri təhlil olunmur. Bu, ciddi nöqsanların yaranmasına gətirib çıxarır.

Nazir bildirib ki, bu gün təhsil sahəsində mövcud olan nöqsan və çatışmazlıqların aradan qaldırılması, tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə Təhsil Nazirliyi tərəfindən fəaliyyət planı tərtib edilib və icrası nəzarətə götürülüb. Həmin plana uyğun olaraq artıq bir sıra tədbirlər həyata keçirilib. Yeni tədris ili ərzində tədbirlər planına uyğun olaraq, dərs bölgüsünün aparılması zamanı neqativ hallara yol verilməməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi, məktəbdə sənədləşmənin mövcud təlimatlara uyğun şəkildə aparılması, XI sinif şagirdlərinin dərsə davamiyyəti nəzarətə götürüləcək, hazırlıq məşğələləri məktəblərdə təşkil ediləcək, "ilin hərbi rəhbəri", "ilin sinif rəhbəri", "ilin idman rəhbəri" və sair nominasiyalar üzrə müsabiqələr keçiriləcək.

Sonra məruzə ətrafında çıxışlar olub.

Səbuhi HÜSEYNOV

## "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar açır

***Muxtar respublikamızda kiçik və orta sahibkarlığın inkişafına dəstək verilməsi, yerli məhsulların qablaşdırma vəziyyətinin müasirləşdirilməsi, keyfiyyətin yüksəldilməsi, həmin malların xarici bazarlara çıxışı sahəsində ticarət sövdələşmələrinin aparılması, yerli brendlərin yaradılması və digər sahələrdə mövcud fəaliyyətlərin təkmilləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunub.***



Cəmiyyətin direktoru Namiq Əhmədov bizimlə söhbətində qeyd etdi ki, müəssisənin fəaliyyətinin təmin edilməsi məqsədilə Sahibkarlığa Kömək Fondundan 260 min manat güzəştli kredit ayrılıb. Naxçıvan şəhərində ayrılmış binada məhsulun qablaşdırılması və saxlanılması üçün normal şərait yaradılıb. Həmçinin istehsal sahələrində quraşdırılacaq Türkiyə istehsalı olan daha müasir texnoloji avadanlıqlar alınıb. Ötən dövr ərzində cəmiyyət tərəfindən müəyyən araşdırmalar aparılıb və sınaq məqsədilə bir neçə məhsul üzrə pilot layihələrin icrasına başlanılıb. Bu layihələrdə muxtar respublikada fəaliyyət göstərən kiçik istehsalçıların fəal istehsalat prosesinə cəlb edilməsi məqsədilə sifariş əsasında məhsul istehsalına üstünlük verilib. Bu çərçivədə "Kənd pendiri", "Çaşır və baldırğan turşusu", "Bal", "Quru meyvə" istehsalı üzrə tələblərə cavab verən istehsalçılarla müqavilələr bağlanıb, zəruri avans ödəmələr aparılıb. Bu şəkildə məhsulların istehsalının təşviqi kiçik istehsalçı subyektlər tərəfindən istehsal olunan məhsulların iri marketlərə çıxışına imkan yaradır və satış probleminin həllinə ciddi töhfə verir. Hazırda muxtar respublikada süd emalı müəssisələri fəaliyyət göstərir. Maliyyə və texniki imkanlarının məhdud olması və digər səbəblərdən bu müəssisələr öz məhsullarını ticarət şəbəkələrinə çıxarmaqda çətinliklərlə üzləşirlər. "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin icrasına başladığı "Kənd pendiri" pilot layihəsi muxtar respublikamızda yerləşən süd emalı müəssisələrinin fasiləsiz fəaliyyət göstərməsinə əlverişli şərait yaradır. Sifariş əsasında məhsul istehsal edən kiçik istehsalçılar daha çox qazanırlar. Təbii ki, həmin müəssisələr gündəlik süd tədarükünü nizama salır, bu isə heyvandarlığın inkişafına stimul verir. Nəticə etibarilə, muxtar respublikada istehsal olunan bu məhsul əvvəlki şöhrətinə yenidən qovuşur, onlarla məhsul istehsalçısının ixtisaslaşması üçün münbit zəmin yaranır, müəssisələr böyük bazarlara çıxış imkanı əldə edirlər. Bu layihələrin digər perspektivli məhsullara şamil edilməsi də planlaşdırılır.

Satışa çıxarılan məhsulların müasir tələblərə uyğun qablaşdırılması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır. "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Türkiyə Respublikasının "Sezeniş Metal", "Levent Makina" və "Umar Makina" şirkətləri ilə müqavilələr bağlanılıb, metal taralar, bağlama və kodlama avadanlıqları alınıb gətirilib. Hazır məhsulların market və ticarət şəbəkələrində müasir ticarət qaydalarına uyğun satışının təşkili üçün onlar barkodlarla təmin edilir, tədarük olunan məhsulların saxlanması və keyfiyyətinə nəzarət məqsədilə laboratoriya analizləri aparılır. Marketinq tədbirləri çərçivəsində "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən xüsusi tərtibatlı soyuducuların alınaraq iri marketlərdə yerləşdirilməsi, reklam işinin təşkili, avtonəqliyyat vasitələrinin alınması və təcrübəli ekspeditorların cəlb edilməsi ilə bağlı kompleks tədbirlər həyata keçirilib.

Mövsümdə muxtar respublikaya xas məhsulların paytaxt Bakı şəhərinə və respublikanın digər regionlarına davamlı və intensiv göndərilməsi istiqamətində işlərin planlaşdırılması aparılıb, bu sahədə ilkin konsepsiya və strategiya müəyyən olunub. Görülmüş işin nəticəsi olaraq, mövsümdə muxtar respublikanın kənd yerlərində yetişdirilən (şalax növü) təzə ərik və qurudulan tut məhsullarının tədarükü üçün əhali arasında məlumatlandırma tədbirləri həyata keçirilib. Digər sahələrdə də tədbirlər davam etdirilir.

Yerli məhsulların xarici bazarlara ixracı istiqamətində müxtəlif araşdırmalar aparılmaqdadır. Bu sahədə uğurlu nəticə əldə etmək üçün muxtar respublikadan ixrac oluna biləcək perspektivli məhsullar müəyyən edilir, həmin məhsulların iqtisadi göstəriciləri və məhsuldarlığı araşdırılır. Bu məhsulların seçilməsində rəqabətədavamlılıq, ənənəvi və orijinal xüsusiyyətlərin olması, təbiilik və yüksək keyfiyyət kimi meyarlar "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən diqqət mərkəzində saxlanılır. Cəmiyyət yerli məhsulların təşviqi və ixracı sahəsində xarici tərəf-müqabilləri, market şəbəkələri və logistik şirkətlərlə müxtəlif danışıqlar həyata keçirir, mümkün əməkdaşlıq əlaqələri qurur. "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin bazarlara çıxaracağı məhsulların üzərində istifadə olunması üçün "Aqronax" və "Pronak" adlı əmtəə nişanlarının eskizləri hazırlanıb. Həmin əmtəə nişanları qeydiyyatdan keçirilib və 10 il müddətinə mühafizəyə götürülüb. "Aqronax"ın daha çox kənd təsərrüfatı məhsullarının qablaşdırılmasında, "Pronak"ın isə (Products of Nakhchivan) gələcəkdə xarici ölkələrə təklif ediləcək məhsulların üzərində istifadə edilməsi nəzərdə tutulur.

Cəmiyyətin fəaliyyətini əks etdirmək, əhalinin, həmçinin iş adamlarının və firmaların müraciət və təkliflərini təmin etmək üçün ***www.agronax.az*** və ***www.pronak.az*** internet saytları yaradılıb.

Qeyd edək ki, "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Kənd pendiri", "Çaşır və baldırğan turşusu", "Bal", "Quru meyvə" pilot layihəsi çərçivəsində ilkin olaraq kənd pendiri, çaşır və baldırğan turşusu 2 kiloqramlıq metal, bal isə 250, 300 qramlıq, 1 kiloqramlıq şüşə taralarda qablaşdırılıb. "Aqronax" əmtəə nişanı ilə istehsal olunan məhsullar Bakı şəhərində və ölkəmizin digər regionlarında alıcılara təqdim olunur. Məhsulun qablaşdırılması müasir tələblərə uyğun aparılır, nəfis tərtibatla bəzədilmiş taraların üzərində istehsal tarixi, tərkibi, saxlanma şəraiti və müddəti göstərilir ki, bu da qida məhsulları istehsalında mühüm amildir.

**Kərəm HƏSƏNOV**

*İstehsal müəssisələri*

## Betonun keyfiyyəti həm də binaların zəlzələyə davamlılığını artırır

*"Gəmiqaya Beton Məmulatları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsulları bu keyfiyyətdədir*



***Ölkəmiz yenicə müstəqillik əldə etdiyi dövrdə Almaniyadan gəlmiş bir qonaq Naxçıvanla tanışlıqdan sonra "Siz böyük sərvətə maliksiniz", – demişdi. Bəli, Tanrı muxtar respublikamıza zəngin yeraltı və yerüstü sərvətlər bəxş edib. Elə Naxçıvançayboyu qum, çınqıl, daş məmulatları da bu sərvətin bir parçasıdır. Sovet hakimiyyəti illərində bu sərvətlərdən kortəbii şəkildə istifadə olunurdu.***

Ötən əsrin 90-cı illərinin sonlarından muxtar respublikamızda başlayan və getdikcə sürətlənən tikinti-quruculuq işlərinin keyfiyyətlə aparılmasında, idxaldan asılılığın aradan qaldırılmasında tikinti məhsulları istehsal edən müəssisələrin həyata vəsiqə alması zərurəti yaranmışdı. İnşaat meydançalarının tikinti materialları ilə vaxtında təmin edilməsi üçün ardıcıl həyata keçirilən tədbirlərin nəticəsi kimi 2005-ci ildə Gəmiqaya Beton Zavodu və Qum-Çınqıl Karxanası fəaliyyətə başladı. Müəssisənin açılış mərasimində çıxış edən Ali Məclisin Sədri demişdir: ***"Quruculuq işləri hər bir sahəni əhatə edir. Həyata keçirilən tikinti üçün keyfiyyətli xammalın, tikinti materialının olması zəruri şərtlərdən biridir. Tikintidə özülün möhkəmliyi betonun, suvağın davamlılığı isə qumun keyfiyyətindən asılıdır. Əvvəllər qum istehsalı ekologiyamıza zərərli, kortəbii şəkildə həyata keçirilirdi, çay qırağından, şoran yerlərdən götürülən qum tikinti işlərinə tam yararlı olmurdu. Tikintidə vaxtından əvvəl təmir işləri aparmaq lazım gəlirdi. Yeni müəssisənin işə düşməsi bu problemlərin aradan qalxmasına şərait yaradacaqdır".***

Bu günlərdə yolumuzu həmin ünvandan saldıq. 2008-ci ildən "Gəmiqaya Beton Məmulatları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilən müəssisə ilə tanışlıq zamanı öyrəndik ki, bütün istehsal prosesləri avtomatlaşdırılmış qaydada aparılır. Texnoloji proseslərə kompüter vasitəsilə nəzarət olunur. Cəmiyyətin iki qumələmə sahəsi var. Bu sexlərin hər biri saatda 100 ton xammal istehsal etmək gücünə malikdir. Qum ələnməsi üçün xammal Naxçıvançaydan gətirilir. Bu xammaldan hazırlanan məhsuldan həm beton zavodunda, həm də dekorativ daşların istehsalında istifadə olunur.

Müəssisə saatda 100 kubmetr beton istehsal etmək gücündə qurulub. Burada əvvəlcə 4 ədəd betonqarışdıran, 1 ədəd betonvuran avtomaşının gücündən istifadə olunurdusa, bu gün 27 ədəd betonqarışdıran və 4 ədəd betonvuran avtomaşının olması istehsal sahəsinin genişləndirilməsini, muxtar respublikada tikinti-quruculuq işlərinin vüsətini təsdiq edən amillərdir.

Eyniprofilli müəssisələrin Şərur və Ordubad rayonlarında da istehsal sahələrinin qurulmasında isə məqsəd ondan ibarətdir ki, muxtar respublika ərazisindəki inşaat obyektləri yaxın məsafədə istehsal edilən keyfiyyətli yerli materiallarla – qumla, çınqılla, beton və digər tikinti materialları ilə təchiz olunsun.

Müəssisənin icraçı direktoru Nurəddin Bağırovla kilid daş istehsalı sexindəki istehsal prosesi ilə də tanış olduq. Qeyd edək ki, bu daşın da xammalı elə çaydan götürülür. Və üyüdücü avadanlıqdan keçirildikdən sonra kilid daş qazanına tökülür. Burada ona sement qarışdırılır və sonra kilid daş qurğusuna daxil edilərək toz boya vurularaq rənglənir. Saatda 70 ədəd istehsal olunan kilid daşlar bir həftə günün altında qalaraq qurudulur. Bu müddət ərzində davamlılığını artırmaq üçün hər gün üzərinə su vurulur və sonra laboratoriyadan keçirilərək satışa buraxılır.

Yeni müəssisələrin yaradılması bir tərəfdən muxtar respublikanın inkişafına xidmət edirsə, digər tərəfdən də yeni iş yerlərinin açılmasına imkan verir. Elə bəhs etdiyimiz müəssisədə çalışan 42 nəfər hər mövsümə uyğun olaraq geyim dəsti ilə təmin olunub, onların işə gəlib-getmələri üçün xüsusi maşınlar ayrılıb.

Kollektivin əməyi ilə cari ilin yeddi ayında müəssisədə 25 adda tikinti materialı, xüsusən sifarişə uyğun olaraq 52 min 347,73 ton beton qarışığı, 18 min 382,86 ton qum-çınqıl, 748,80 kubmetr kərpic, 772,97 ton beton məmulatları istehsal olunub muxtar respublikanın tikinti obyektlərinə çatdırılıb.

## Bu il Şərur rayonunda bol məhsul yetişdirilib

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2007-ci il 23 yanvar tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" və 2008-ci il 21 avqust tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə" sərəncamları aqrar sahədə mövcud problemlərin aradan qaldırılmasına, bu sahənin dinamik inkişafına ciddi təkan verib. Həmin sərəncamlar Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına, istehsalçıların yüksək reproduksiyalı buğda toxumuna, cins damazlıq mal-qaraya olan ehtiyacının ödənilməsinə, habelə mineral gübrə və texnikanın saxlanması üçün xüsusi anbarların tikilməsinin təmin edilməsinə müsbət təsir göstərib, sadalanan işlərin görülməsini sürətləndirib, bütövlükdə isə ərzaq təhlükəsizliyinin yaradılması istiqamətində mühüm rol oynayıb.

Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsi üstün istiqamət verilən sahələrdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilən və icrası uğurla başa çatan "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada əhalini ilin bütün fəsillərində keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə soyuducu anbarlar, yerli xammala əsaslanan kənd təsərrüfatı təyinatlı istehsal müəssisələri yaradılıb. Belə tədbirlərin həyata keçirilməsi nəticəsində yerli istehsalın inkişafına təkan verilir, muxtar respublika əhalisinin tələbatı yerli istehsal hesabına ödənilir, yeni iş yerləri açılır.

Qeyd edək ki, muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da sözügedən istiqamətdə reallaşdırılan tədbirlər öz müsbət nəticələrini verməkdədir. Əkin sahələrinin genişləndirilməsi, məhsuldarlığın ilbəil yüksəldilməsi rayonda bu sahənin inkişafına göstərilən qayğının ifadəsidir. Cari ilin taxıl tədarükü kampaniyası bunu bir daha göstərdi. Biçini optimal müddətdə başa çatdırmaq üçün torpaq mülkiyyətçiləri bütün texnika və avadanlıqlarla təmin edilmişdi.

Rayonda kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyinin göstərilməsi də diqqət mərkəzində saxlanılır. Bu qayğının nəticəsidir ki, cari ildə 1324 torpaq mülkiyyətçisinə 7 min 436 hektar əkin sahəsinə görə 664 min 600 manat subsidiya verilib. Şərurlu təsərrüfatçılara 1 milyon manatdan çox kreditin ayrılması da kənd təsərrüfatının inkişafına göstərilən qayğıdır. Elə bu qayğıdan bəhrələnən təsərrüfatçılar cari ilin məhsulu üçün 7637 hektar sahədə taxıl əkini aparıblar. Bunun 7320 hektarını buğda, 317 hektarını arpa təşkil edib. Sahələrdən 24 min 117 ton məhsul götürülüb. Sahələrdən bol məhsul götürən taxılçılar gələn ilin məhsulu üçün şum qaldırılmasına başlayıblar.

Rayon ərazisi tərəvəzçilik üçün də əlverişlidir. Odur ki, torpaq mülkiyyətçiləri 1578 hektar sahədə tərəvəz bitkiləri, o cümlədən 123 hektarda soğan, 52 hektarda sarımsaq əkini aparıblar. Hazırda sahələrin məhsulu toplanır. Şərurlu zəhmət adamları bostançılığa da maraq göstərirlər. Elə 474 hektar sahədə əkilən bostan məhsulları da bunu təsdiq edir. Hazırda əkin sahələrində yığım aparılır.

İkinci çörək sayılan kartof əkininə şərurlular ilbəil zəhmət sərf etməkdən yorulmurlar. Torpaq mülkiyyətçiləri 760 hektar sahədə bu vacib sahənin əkinini həyata keçirib və hələlik sahələrdən 9000 tondan çox məhsul götürüblər. Qeyd edək ki, rayonda məhsulların saxlanılması üçün 1920 ton tutumu olan 8 soyuducu anbarın olması isə kənd əməkçilərinə böyük töhfədir.

**Hafizə ƏLİYEVA**

*Gəncliyimiz, gələcəyimiz*

## Zəhmət çəkən uğur qazanır

***Bu il yüksək bal toplayaraq ali məktəblərə qəbul olunan gənclərlə bağlı yazılar hazırlamağı davam etdiririk. Yüksək bal toplayan daha üç gənci oxuculara təqdim edirik.***



Məktəb cəhalət dərdinin dərmanı, mərifət bağının xiyabanıdır. Ordubad şəhər 1 nömrəli tam orta məktəb bu müqəddəs kələmin sahibi Məhəmməd Tağı Sidqinin adını daşıyır. Azərbaycan elminə neçə-neçə alimlər, elm fədailəri bəxş etmiş bu məktəb ilbəil yetişdirdiyi məzunları, təzələnən uğurları ilə hələ də bu müqəddəs missiyanı uğurla davam etdirməkdədir.

2015-2016-cı tədris ilinin timsalında da bunu görmək olar. Belə ki, cari ildə Ordubad şəhər 1 nömrəli tam orta məktəbdən məzun olan 24 nəfərdən 18-i ali məktəbə qəbul üçün sənəd verib, onlardan 14 nəfəri tələbə adını qazanıb. Onlardan biri də Vüsal Hacızadədir. O, hələ ibtidai sinifdən öz fəallığı və yüksək dərəcəli qavrama bacarığı ilə müəllimlərinin rəğbətini qazanıb. Təhsil aldığı illər ərzində məktəbin ictimai işlərində də fəallıq göstərən Vüsal keçirilən bilik yarışlarında, olimpiadalarda bir çox uğurlara imza atıb. Sınaq-test imtahanlarında isə o, 600-700 intervalında bal toplamağa müvəffəq olub. 2014-cü ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikasında keçirilən "Nuh yurdu" intellektual bilik yarışında Vüsalın kapitan kimi çıxış etdiyi komanda birinci yeri qazanıb. Komanda bu uğurla kifayətlənməyib, Qusar rayonunda keçirilən "Xəmsə" milli intellektual oyunu üzrə yeniyetmələr arasında 4-cü Azərbaycan çempionatında 3-cü yerə çıxıb. 2015-ci ilin yanvar ayında Naxçıvan şəhərində keçirilən "Nuh yurdu" intellektual bilik yarışında Vüsalın kapitanlıq etdiyi komanda 1-ci dərəcəli diploma layiq görülüb.

Bu il ali məktəblərə qəbul imtahanında Vüsal Hacızadə 681 bal toplayaraq Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyat fakültəsinə qəbul olunub. O, öz sevincini belə ifadə edir:

– Bu gün tələbə adını qazanmaq heç də çətin deyil. Muxtar respublikamızda yaradılan şərait bunu deməyə imkan verir. Sadəcə, bu imkanlardan düzgün və səmərəli istifadə etmək lazımdır. Bütün abituriyentlər yüksək nəticə əldə edərək həm ailəsini, müəllimlərini sevindirmək, həm də istədikləri təhsil ocağında seçdikləri ixtisasda təhsil almaq haqqı qazanmaq istəyirlər. Mən də çox çalışaraq arzuma çatdım, ali məktəblərə qəbul imtahanlarında 600-700 arası bal toplamağa müvəffəq oldum. Bundan sonrakı hədəfim vətənə layiqli bir övlad kimi yetişmək, cəmiyyətdə layiqli yer tutmaqdır.

Vüsal təhsilə göstərilən qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirdi. Avqustun 22-də ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə Ali Məclis Sədrinin görüşünü heç bir zaman unutmayacağını bildirən Vüsal dedi:

– Həmin görüşdə Ali Məclisin Sədri bizə müraciətlə: – Gələcəkdə hansı sahədə çalışmağınızdan asılı olmayaraq müstəqil Azərbaycana ləyaqətlə xidmət etməlisiniz. Dünyagörüşünüzü inkişaf etdirməli, milli və ümumbəşəri dəyərləri, xalqımıza məxsus adət-ənənələri mənimsəməlisiniz. Bununla yanaşı həm də vətənpərvər olmalı, Vətən naminə çalışmalı, ümummilli liderimiz Heydər Əliyevin yoluna və ideyalarına sədaqət nümayiş etdirməlisiniz, – dedi. Biz gələcək həyat yollarımızda bu qiymətli tövsiyələrə uyğun hərəkət etməliyik.

Vüsal sonda bir daha qeyd etdi ki, bundan sonra da ona ümid bəsləyənləri təhsildə və həyatda qazanacağı uğurlarla sevindirəcək, ona olan etimadı doğruldacaq!

* * *



**Sona ƏLİYEVA:** – Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbi bitirmişəm. Hələ orta məktəbdə oxuduğum illərdə arzum hüquqşünas olmaq, insanların hüquqlarını müdafiə etmək idi. Ona görə də ciddi çalışır, əlavə ədəbiyyatlar oxuyurdum. İndi budur, sevdiyim ixtisasda təhsil almaq arzum reallaşıb. Ali məktəblərə qəbul imtahanında 674 balla Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasına daxil olmuşam. Bu uğurumda məktəbimizin müəllimlərinin böyük rolu olub. Buna görə onların hər birinə minnətdarlığımı bildirirəm. Orta təhsil aldığım məktəb bu gün muxtar respublikada nümunəvi təhsil ocaqlarından biridir. Burada şagirdlərin elmlərin sirlərinə dərindən yiyələnmələri üçün hərtərəfli şərait yaradılıb.



**Hüseyn AŞURLU:** – Təhsilimə Şərur şəhərindəki 1 nömrəli tam orta məktəbdə başlasam da, 2014-cü ildən doğulduğum Axaməd kənd tam orta məktəbində təhsilimi davam etdirmişəm. Orta məktəbdə oxuduğum illərdə qarşıma məqsəd qoymuşdum ki, ali məktəblərə qəbul imtahanında yüksək nəticə əldə edim. Buna da nail oldum. Belə ki, ali məktəblərə qəbul imtahanında 659 bal toplayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi adını qazandım. Bir abituriyent üçün bundan böyük sevinc ola bilməz. Məhz buna görə mən 2016-cı ili ən uğurlu ilim hesab edirəm. Məktəbimizdə şagirdlərin təhsili üçün yaxşı şərait yaradılıb. Muxtar respublikada ilbəil yüksək bal toplayan şagirdlərin sayının artması da məhz elə regionumuzda təhsilə yaradılan şəraitin, göstərilən qayğının nəticəsidir. Tələbə adını qazanmağım isə təkcə mənim yox, həmçinin valideynlərimin və müəllimlərimin uğurudur. Buna görə də mənə dəstək olan valideynlərimə, məzun olduğum məktəbin müəllimlərinə minnətdaram.

**✍ Fatma BABAYEVA**

*Unutsaq, unudularıq*

## *"Tibnamə"* müəllifi Hatif İsfəhani (Ordubadi)

Son zamanlar Naxçıvan Muxtar Respublikasında qədim əlyazma və kitabların toplanması zamanı Ordubad şəhərində fars dilində nəstəliq xətti ilə yazılmış əlyazma əldə edilib. Bu nüsxənin üz qabığı düşüb və son səhifələri də çürüyüb. 95 səhifədən, ölçüsü 22x17,5 santimetrdən ibarət olan bu qədim kitabın sonunda oval şəkilli möhür içərisində ərəb qrafikası ilə "Hatif Əl-Katib" sözü yer alıb.

Müəyyənləşdirilib ki, Hatif İsfahanda doğulub, amma onun ulu babası Naxçıvanın Ordubad bölgəsinin Hüseyni seyidlərindəndir. Babası Səfəvilər dövründə müəyyən səbəblərə görə İsfahana mühacirət edib. O, dövrünün şeir və ədəbiyyatı ilə də yaxından maraqlanaraq Müşfiq İsfahaninin yanında bu sahə ilə bağlı biliklərini kamilləşdirib, ancaq onun əsl peşəsi ustadı Mirzə Nəsir kimi təbiblik olub. Hatif İsfəhani təbibliyə olan sevgisini nəzmə çəkib:

*Mənə verilənlərdən biri budur ki,*
*Fələyin mən döndərəm işini.*
*Verdi təbiblik peşəsini Yaradan,*
*Bu peşədə bizardır mənə bəndələr.*
*Nədir bu əməldən faydam bilirsən?*
*Əzizlərə zəiflikdə yardım.*
*İstəyirlər məndən böyüklər xəstəlikdə,*
*Həm müalicə, həm şəfqət".*

Bu barədə AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru Fəxrəddin Eylazov deyir ki, Hatif İsfəhani (Ordubadi) Naxçıvan torpağının yetirmələrindəndir. Biz onun "Tibnamə" (tərcümə və şərh) adlı kitabını ictimaiyyətə çatdırdıq. Bu sahədə daha bir naxçıvanlı dahini üzə çıxardıq. Onun yazdığı "Tibnamə" kitabı, həqiqətən də, səhiyyə sahəsinə dair maraqlı faktlarla doludur. Qeyd edək ki, bu nüsxə digər tibnamələrdən fərqlənir. Belə ki, əvvəldə ümumi şəkildə hansısa bir üzvün xəstəliyinə aid başlıq verilir. Sonrakı mərhələdə həmin üzvə aid xəstəliklərin ardıcıl şəkildə adı, təbiəti (quru və rütubət), yaş dövrləri (uşaq, cavan, qoca), cəhətləri (şimal və cənub), təhlükəlilik dərəcəsi (qorxulu, qorxusuz), səbəbi, əlaməti, müalicə üsulu (padşahanə və dərvişanə) şərh edilib.

Hatif İsfəhaninin həyat və yaradıcılığı haqqında qaynaqlarda çox az məlumat var. Qeyd edək ki, o təkcə tibb sahəsi ilə deyil, elmin müxtəlif sahələri ilə də məşğul olub. XVIII əsrdə Ordubad şəhərində yaşayan filosof-təbib Hatif Seyid Əhməd İsfəhani (Ordubadi) o cümlədən ədəbiyyatda da özünü layiqli yer tutub. Əminik ki, insanlar bu əlyazmadan çox nadir məlumatlar əldə edə biləcəklər.

Sadaladığımız faktlardan bir daha aydın olur ki, orta əsrlər Naxçıvan mühiti görkəmli şəxsiyyətlərin yetişdiyi Şərqtipli bir mühit idi. Burada yaşayan ziyalıların əksəriyyəti yaradıcılıqlarında ədəbiyyata, bədii sözün imkanlarına müraciət edərək bu sahədə qiymətli nümunələr yaradıblar. Qədim dövr və orta əsrlər Naxçıvan ədəbi mühiti ilə bağlı olan ədəbiyyatda klassik irsə sadiqlik, Şərq ədəbiyyatına, Şərq təfəkkürünə üstünlük verilməsi aşkar nəzərə çarpır. Bundan başqa, ədəbiyyatda Şərq süjetləri olduğu kimi deyil, qismən yeniləşdirilərək təsvir edilir.

**✍ Nərgiz İSMAYILOVA**

## Ağbulaq İstirahət Mərkəzinin növbəti qonaqları güləşçilər olub



Cari il mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən, idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilir. Mərkəzin növbəti qonaqları Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının üzvləri olub.

İdmançıları Ağbulaq İstirahət Mərkəzində mərkəzin və təşkilatçı qurumların əməkdaşları qarşılayıblar. İkigünlük istirahət proqrama uyğun olaraq təşkil edilib. İdmançılar Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanış olub, onların "Ağbulaq" bulağına yürüşü keçirilib. Şam yeməyindən sonra isə güləşçilər üçün vətənpərvərlik mövzusunda "Nuh yurdu – Naxçıvan" sənədli filmi nümayiş etdirilib. Elə həmin gün idmançılar şahmat və dama üzrə yarışlarda qüvvələrini sınayıblar.

İkinci günə idmançılar mərkəzin stadionunda gimnastika hərəkətləri ilə başlayıblar. Səhər yeməyindən sonra mini-futbol qarşılaşmaları keçirilib. Gün ərzində güləşçilər üçün tamaşalar da nümayiş etdirilib. Nahar yeməyindən sonra federasiya üzvlərinin Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

Mərkəzdə istirahət edən məşqçilər və idmançılar burada keçirdikləri ikigünlük istirahətdən razı qalıblar. Federasiyanın sədr müavini Faiq İsgəndərov bildirdi ki, artıq federasiyanın üzvləri bura mütəmadi olaraq gəlirlər. Mərkəzdə yaradılan şərait, idmançılara göstərilən diqqət onlar üçün əlavə stimuldur. Yaradılan bu şəraitə görə təşkilatçılara minnətdarlığımızı bildiririk.

Federasiyanın üzvü Namiq Əlizadə, Hüseyn Əhmədov vurğuladılar ki, mərkəzdəki istirahət onların qarşıdakı yarışlara hazırlığına müsbət təsir göstərəcək.

Qeyd edək ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Güləş Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

## Karate-do üzrə açıq birincilik keçirilib

Karate-do üzrə keçirilən Babək rayon açıq birinciliyinə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq, Babək Rayon Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının təşkil etdiyi açıq birincilikdə 8 komandanın 120-dən çox idmançısı mübarizə aparıb.

Birinciliyin açılış mərasimində çıxış edən federasiyanın sədr müavini Nəriman Quliyev bildirib ki, karate-do idman növünün inkişafı üçün muxtar respublikanın şəhər və rayonlarında şərait yaradılıb, bölmələr fəaliyyət göstərir. İdmançıların yarış təcrübələrini artırmaq üçün federasiya nazirliklə birgə mütəmadi olaraq tədbirlər təşkil edir. Bu da gələcəkdə idmançıların yarışlarda uğurlu nəticələr qazanmasına zəmin yaradır.

Sonra çıxış edən Babək Rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı idmançılara keçirilən yarış barədə məlumat verib və onlara uğurlar arzulayıb.

"Şərur" komandası bütün rəqiblərini məğlub edərək birinciliyin qalibi adını qazanıb. "Babək" komandası ikinciliklə kifayətlənib. Fəxri kürsünün üçüncü pilləsində isə culfalı karateçilər yer alıblar.

Sonda açıq birincilikdə fərqlənən komandalar diplomlarla təltif olunublar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Yay tətili uşaqların gözü ilə

***Muxtar respublika məktəblilərinin yay tətili günlərində asudə vaxtlarının səmərəli təşkili məqsədilə həyata keçirilən tədbirlər davamlı xarakter alıb.***

Naxçıvan şəhərində məktəbdənkənar tərbiyə müəssisələrinin iştirakı ilə "Yay tətili uşaqların gözü ilə" devizi altında musiqili konsert proqramı da yaddaqalan olub.

Tədbirdə vurğulanıb ki, muxtar respublikanın məktəbdənkənar tərbiyə müəssisələrinin fəaliyyət dairəsini genişləndirmək üçün belə müəssisələrə hərtərəfli qayğı göstərilir.

Sonra konsert proqramına start verilib.

Təhsil Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin qarşısında keçirilən tədbir əhalinin, əsas da uşaqların böyük marağına səbəb olub.

Tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Gənc Heydərçilər" dəstəsi şeirlərlə, "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı isə rəngarəng musiqi və rəqs nömrələri ilə çıxış ediblər.

Estetik Tərbiyə Mərkəzinin vokal qrupunun ifa etdiyi "Azərbaycan" mahnısı tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb. Mərkəzin "Fidanlar" qrupu gözoxşayan rəqsləri ilə seçilib.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Kəngərli rayonunun Xok kənd sakini Məmişov Namizəd Cəfər oğlunun adına olan 839B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 682